# CIRTDAN



## Padşah və xoruz



# Cırtdan





823(5Az)
C63
80154

Biri vardı, biri yoxdu, bir qarı vardı. Bu qarının balaca bir nəvəsi vardı. Nəvə o qədər balaca idi ki, ona Cırtdan deyərdilər.

Bir gün Cırtdan gördü ki, qonşu uşaqları meşəyə oduna gedirlər, gəlib nənəsinə dedi:



- Ay nənə, uşaqlarla oduna mən də gedəcəyəm.

Qarı uşaqları çağırıb hərəsinə bir parça yağ yaxmacı verdi. Cırtdanı da onlara tapşırdı.



Yolda Cırtdan özünü yerə vurub getmədi, yoldaşları dedilər:

-Ay Cırtdan, niyə gəlmirsən?

Cırtdan dedi:

-Nənəm məni sizə tapşırıb, məni kürəyinizə alıb aparın.

Yoldaşları onu növbə ilə kürəklərinə alıb, meşəyə gətirdilər. Uşaqlar odun yığmağa başladılar. Gördülər ki, Cırtdan odun yığmır.



Dedilər:

- Ay Cırtdan, sən niyə odun yığmırsan?

Cırtdan cavab verdi:

- Nənəm məni sizə tapşırıb, mənə də odun yığın.

Uşaqlar ona da odun yığdıla. Sonra hər kəs öz odununu şələ bağlayıb kürəklərinə aldı. Gördülər Cırtdan yenə oturub baxır. Ona dedilər:

-Ay Cırtdan, sən niyə odununu götürmürsən?



Cırtdan cavab verdi:

- Nənəm məni sizə tapşırıb, mənim odunumu da götürün.

Uşaqlar əlacsız qalıb, Cırtdanın da odununu kürəklərinə götürdülər. Bir az yol gedəndən sonra gördülər ki, Cırtdan geridə qalıb ağlayır. Dedilər:

- Ay Cırtdan, niyə ağlayırsan?

Cırtdan cavab verdi:

- Yorulmuşam, gedə bilmirəm.

Uşaqlar əlacsız qalıb növbə ilə Cırtdanı kürəklərinə mindirib apardılar.



Onlar xeyli getdikdən sonra Axşam oldu, qaranlıq düşdü yolu azdılar. Gördülər ki, bir tərəfdən işıq gəlir, digər tərəfdə isə it hürür. Bilmədilər hansı tərəfə getsinlər. Cırtdandan soruşdular:

- Ay Cırtdan, it hürən tərəfə gedək, yoxsa işıq gələn tərəfə?

Cırtdan cavab verdi:

- İt hürən tərəfə getsək, it bizi qapar. İşıq gələn tərəfə gedək, bəlkə yolu tapa bildik.

Uşaqlar işıq gələn tərəfə gedib bir divin evinə çıxdılar. Div onları görəndə sevinib öz-özünə dedi: "Yaxşı oldu. Gecə onları bir-bir yeyərəm." Uşaqlara bir az çörək yedirdib yatırtdı.



Gecədən bir az keçəndən sonra div uşaqların birini yemək istədi. Uşaqların yatıb-yatmadığını bilmək üçün dedi:

- Kim yatıb, kim oyaq?

Bu sözü eşidəndə Cırtdan tez başını qaldırıb dilləndi:

- Hamı yatıb, Cırtdan oyaq.

Div soruşdu:

- Cırtdan nə üçün oyaq?

Cırtdan dedi:

-Nənəm mənə hər gecə qayğanaq bişirərdi, yedirib yatırardı.

Div tez qayğanaq bişirib Cırtdana yedirdi.



Bir qədər keçəndən sonra div yenə soruşdu:

- Kim yatıb, kim oyaq?

Yenə Cırtdan başını qaldırıb dedi:

- Hamı yatıb, Cırtdan oyaq.

Div soruşdu:

- Cırtdan, indi niyə yatmırsan?

Cırtdan dedi:

- Hər gecə nənəm mənə çaydan xəlbirlə su gətirərdi.



Div xəlbiri götürüb çaydan su gətirməyə getdi. Cırtdan da tez yoldaşlarını oyadıb dedi:

- Bu div bizi yemək istəyir. Qalxın, qaçaq.

Uşaqlar tez qalxdılar, qaçıb çaydan keçdilər. Div isə nə qədər xəlbiri suya salıb çıxarsa da gördü ki, xəlbirdə su qalmır. Bir də gördü ki, uşaqlar çayın o tərəfindən gedirlər.





İstədi çaydan keçib uşaqların arxasınca düşsün, amma keçə bilmədi. Axırda onları səslədi:

- Ay uşaqlar, çaydan necə keçdiniz?

Cırtdan tez cavab verdi:

-Get bir dənə dəyirman daşı tap, boynuna keçir, özünü suya at, onda keçərsən.

Div Cırtdanın sözünə inandı, gedib bir dəyirman daşı tapdı, boynuna keçirib özünü çaya atdı və suda boğulub öldü. Beləliklə, balaca Cırtdan öz ağlı ilə Divə qalib gəlib uşaqları xilas etdi.

Göydən 3 alma düşdü: Biri mənim, biri nağılı danışanın, biri də nağıla qulaq asanın.





# Padşah və xoruz





Biri var imiş, biri yox imiş, bir xoruz var imiş.
Bir gün Xoruz peyinlikdə eşələnib özünə yem arayanda bir qara pul tapdı, şad olub başladı oxumağa:
-Quqquluqu! Bircə şahı (beş qəpik) tapmışam!



Padşah xoruzun səsini eşidib buyurdu ki, gedib onun pulunu əlindən alsınlar.

Şahını xoruzun əlindən alandan sonra xoruz başladı oxumağa:

- Quqqulugu! Padşah mənə möhtac imiş!

- Padşah buyurdu ki, xoruzun şahısını aparıb özünə versinlər.

- Quqqulugu! Padşah da məndən qorxar imiş!





Padşah bunu eşidəndə xoruza hirsləndi və buyurdu ki, onu tutub başını kəssinlər.

Xoruzun başını kəsəndə oxudu:

- Quqqulugu! Nə iti bıçaq imiş!



Xoruzun başını kəsincə onu saldılar qaynaq suya ki, tükünü yolsunlar. Qaynar qazanın içində xoruz oxudu:

- Quqqulugu! Nə isti hamam imiş!





Xoruzu qazanın içindən çıxarıb tükünü yoldular və bişirib plovun üstünə qoydular.

Burada xoruz oxudu:

- Quqqulugu! Nə ağca təpə imiş!



Plovu padşahın qarşısına gətirdilər. Padşah plovu yeyəndə xoruz onun boğazında yenə oxudu:

- Quqquluqu! Nə darca küçə imiş!

Ondan sonra xoruz getdi qaranlıq yerə, orada oxudusa da, kimsə səsini eşitmədi.





Şəngülüm,
Şüngülüm,
Məngülüm

nağılını da
kitab satış
nöqtələrindən
soruşun.


Səsi artır >>>>
Səsi azalt <<<<
Yandırıb/söndürmə
növbəti